**Hər gün ağbirçək, gülərüz bir qadın Gəncə Şəhər Mərkəzi Kitabxanasına işə tələsir. O, 52 ildir ki, ömrünü kitablar arasında keçirir.**

**Həqiqət xanım Haqverdiyeva 1940-cı ildə Gəncə şəhərində anadan olub. İlk təhsilini də bu şəhərdə alıb. 1958-ci ildən ömür yollarında kitabxana ilə qoşa addımlayır...**



# Ömrün 70-ci pilləsi

Kitabxanada işləyə - işləyə 1961-ci ildə Bakı Kitabxanaçılıq Texnikumuna daxil olub və 1963-cü ildə bu təhsil ocağını bitirib. Elə o vaxtdan da ömrünü kitablar arasında keçirməyə sərf edib. İşlədiyi 52 il müddətində MKS-in oxu zalının müdiri, Kitabişləmə şöbəsində böyük kitabxanaçı işləyib. Sonuncu dörd ildə Metodiki İşlərin Təşkili şöbəsində metodist işləyir. Uzun illər kitablarla ünsiyyətdə olan üzü nurlu bu xanım yaxşı ailə başçısı, yaxşı işçi, çox mehriban, qayğıkeş bir insan, gözəl iş yoldaşıdır.

Həqiqət xanımın kitabxanada çalışdığı bu illər, bu ömür yolu ona çoxlu dostlar qazandırıb. Bu mehriban çöhrəli qadın uzun illər ərzində daima öyrətdi və özü də öyrəndi. O, öz peşəsini ürəkdən sevən, öz iş təcrübəsini gənclərə öyrətməkdən həzz alan bir insandır.

Həyatda insan bir özü üçün yaşaya bilməz, o, daim insanları, cəmiyyəti düşünməlidir. Bu mehriban qadın kimə isə lazım olduğunu, kimə isə nə isə öyrədə bildiyini görəndə çox sevinir, qəlbi rahatlıq tapır. Vaxtı ilə onun oxucusu olan insanlar arasında indi müəllim, həkim, mühəndis, ali təhsilli kitabxanaçılar və s. müqəddəs peşə sahibləri var. Bu gün onlar öz sahələrində çox məsuliyyətlə çalışırlar. Bu uğurlarda onun da payı var. Kitabxanaçı bilikli olmalı, öz üzərində işləməli, daima axtarışda olmalıdır. Çünki bugünkü tələbkar oxucuları razı salmaq, onların sorğularına dolğun cavablar vermək asan iş deyil. Ona görə kitabxanaçı həmişə öz peşə biliyini artırmalıdır. Həqiqət xanımın gənc kitabxanaçılara tövsiyəsi budur ki, daima oxusunlar, biliklərini artırsınlar, oxuculara xidmət etməkdən usanmasınlar, səbirli, gülərüz olsunlar, əsil kitabxanaçı ənənəsini yaşatsınlar.

Ömrün 70-ci pilləsi gəldi - Həqiqət xanım... Bu yubiley münasibəti ilə sizi bütün kollektivimiz ürəkdən təbrik edir. Hələ qarşıda 75-ci, 80-ci pillələr durur, qismət hansı yüksəkliyə qədər olacaq?! Onu bir Allah bilir. Ancaq bir gözəl arzu ürəklərdə yaşayır ki, siz ömrün ən yüksək pilləsinə çatasınız. Bu pilləyə çatmaqda sizə kitabxanamızın bütün kollektivi adından cansağlığı, xoş xatirələrlə dolu illər arzulayırıq.

Arzu edirik ki, bundan sonra da yaşayacağınız illərdə hər şey ürəyinizcə, istədiyiniz kimi olsun.

**• Şahnaz ƏHMƏDOVA,**
***metodiki işlərin təşkili şöbəsinin böyük metodisti***